# İSTEDAD VƏ ZƏHMƏTİN VƏHDƏTİ

***Xoş xəbər quş qanadlı olur. Birçə anda neçə qapı döyür, kəndlər, şəhərlər dolaşır, sərhədlər keçir, ölkələr gəzir. Qonağı olduğu adamların üzünü güldürür, qəlbini sevindirir.***

***Son vaxtlar dünyanın müxtəlif ölkələrindən, respublikamızın ayrı-ayrı bölgələrindən mədəniyyət nazirliyinə ünvanlanan təbrik məktubları da bu sevinci bölüşmək məqsədi güdür.***

Burada sevimli sənətkarımızı – Azərbaycanın Mədəniyyət naziri, xalq artisti, professor Polad Bülbüloğlunu anadan olmasının 60 illiyi və ölkəmizin ali mükafatı "İstiqlal" ordeni ilə təltif edilməsi münasibətilə təbrikə tələsən insanların ürəklərindən süzülüb gələn səmimi duyğuların şahidi olduqca qürur hissi kecirir, qeyri-ixtiyari umummilli liderimiz Heydər Əliyevin böyük bəstəkar, tanınmış mədəniyyət xadimilə bağlı söylədiyi yüksək fikirləri xatırlayırıq:

*"Əgər XX əsrin birinci yarısında Sizin atanız, Azərbaycan peşəkar vokal sənətinin banisi böyük Bülbül öz yaradıcılığında Azərbaycan muğam sənəti ilə Avropa ifaçılıq məktəbinin əvvəllər misli görünməmiş vəhdətini yaratmağa nail ola bilmişdisə, əsrin ikinci yarısında Sizin yaradıcılığınız müasir estrada mahnı sənətinin milli xalq melodiyalarımızın ritmləri ilə birləşməsinin rəmzinə çevrilidi. Siz həm bəstəkar kimi, həm də öz mahnılarının təkrarolunmaz ifaçısı kimi keçmiş Sovet İttifaqı gəncləri içərisində tez bir zamanda böyük uğur qazana bildiniz. Pərəstişkarlarınız tərəfindən həmişə Azərbaycan bəstəkarlıq məktəbininin inkişafında mühüm bir mərhələ kimi qəbul edilən sənətiniz bu gün də gənc nəsil tərəfindən olduqca yüksək qiymətləndirilir.*

*Əsərlərinizin içərisində kinofilmlərə yazdığınız musiqi xüsusilə seçilir. Çoxşaxəli istedadınız kino aktyoru kimi fəaliyyətinizdə də özünü göstərir..."*

*"Polad atasının qoyduğu yolla gedən bir insandır. O, incəsənət xadimi - həm bəstəkar, həm musiqiçi, həm də böyük mədəniyyət təşkilatçısıdır. Polad həm də Azərbaycanın Mədəniyyət naziridir, bu vəzifəni uzun müddətdir ki, çox layiqincə yerinə yetirir..."*

Bəli, Polad Bülbüloğlunun həyat və yaradıcılığında, ictimai fəaliyyətində diqqət çəkən, heyrət doğuran örnək olacaq cəhətlər çoxdur. Sözün ilə işi, vədi ilə əməli bir qayda olaraq həmişə üst-üstə düşən, ölkəsinin ağır günündə də, fərəhli anında da xalqının içərisində, millətinin önündə addımlayan, milli mədəniyyətə, onun tarixi qaynaqlarına böyük qayğı ilə yanaşan, təbliği və tərəqqisində yorulmaq və usanmaq bilmədən çalışan, bu yolda hətta sağlamlığından belə keçən bir adam təbii ki, yalnız təqdir edilməli, sevilməli və alqışlanmalıdır...

Polad Bülbüloğlu 1945-ci il fevralın 4-də anadan olub. Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bitirib. Dünya şöhrətli bəstəkar Qara Qarayevdən aldığı dərsi bütün yaradıcılığı boyu məharətlə davam etdirmişdir. O, bir tərəfdən mahnılar üzərində işləyir, simfoniyalar, kamera əsərləri, vokal silsilələri bəstələyir, digər tərəfdən də sənədli və bədii filmlərə musiqilər yazır, özü də bu ekran əsərlərində müğənni kimi iştirak edirdi. Azərbaycan kinematoqrafçılarının çəkdiyi "Uşaqlığın son gecəsi", "Qorxma, mən səninləyəm", "Mən mahnı bəstələyirəm", "Babək" və s. kinofilmlərin musiqisi də məhz Polad Bülbüloğluna məxsusdur. Mütəxəssislərin rəyinə görə, Polad Bülbüloğlunun yaratdığı mahnılardan tutmuş irihəcmli musiqi əsərlərinədək hamısı texniki kamilliyi, melodik coşqunluğu və orijinallığı ili seçilir. Polad Bülbüloğlu həm bəstəkarlıq, həm də müğənnilik edərək ötən əsrin 60-70-ci illərində demək olar ki, Azərbaycan musiqi mədəniyyətinin dünyada ən yaxşı təbliğatçılarından biri olmuşdur. O, keçmiş Sovet İttifaqında popular olan müxtəlif estrada kollektivlərinə bacarıqla rəhbərlik etmişdir. Azərbaycanlı bəstəkar-müğənninin səsi planetin 70-dən artıq ölkəsini dolaşmışdır. Azərbaycan musiqi mədəniyyətinə göstərdiyi xidmətə və böyük yaradıcılıq uğurlarına görə Polad Bülbüloğlu çox gənc yaşlarında – 28 yaşında əməkdar, 37 yaşında isə xalq artisti kimi yüksək fəxri ada layiq görülmüşdür. O, SSRİ Bəstəkarlar İttifaqının və Kinematoqrafçılar İttifaqının üzvü seçiləndə 24 yaşı var idi. Hələ də tamaşaçılar unutmayıblar ki, keçmiş SSRİ-də keçirilən məşhur televiziya festivalları zamanı – "Mahnı – 72", "Mahnı – 77", "Mahnı – 78" və "Mahnı – 79"-un laureatı məhz Polad Bülbüloğlu olmuşdur. Bu, o zaman çox böyük bir nailiyyət idi. Bütün respublikaların təmsil olunduğu müsabiqələrin, festivalların qalibinin məhz azərbaycanlı seçilməsi böyük fəxarət sayılırdı. Moskvada yaşadığı illərdə tez-tez Bakıya gələrdi. Onun konsert salonlarındakı çıxışları əsl musiqi bayramına, təntənəyə çevrilərdi.





*4 fevral 2005-ci il. Prezident sarayı. Bir azdan dövlətimizin başçısı İlham Əliyev uzun illərdən bəri tanıdığı Polad Bülbüloğlunun unudulmaz əsərlərinin xalqımız tərəfindən həmişə sevildiyini vurğulayacaq, bir nazir kimi Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərini yüksək qiymətləndirəcək və ölkəmizin ali mükafatını –"İstiqlal" ordenini ona təqdim edəcək...*

Təkcə keçmiş SSRİ-nin deyil, bir çox xarici ölkələrin də o dövrdə mükafatlarını almış Polad Bülbüloğlu 1987-ci ildə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasına bədii rəhbər və direktor təyin edilmişdir. Həmişə səsi və yaradıcılığı ilə sevilən Polad Bülbüloğlunun burada başqa bir yöndə qabiliyyəti də üzə çıxdı. O, həm də bacarıqlı rəhbər işçi, təşkilatçı kimi özünü göstərə bildi.

1988-ci ilin dekabrından Azərbaycan Respublikasının Mədəniyyət naziridir.

Bir-birinə qovuşan illər Polad Bülbüloğlu üçün uğurlu və fərəhli gəlib. Birinci növbədə, onun peşəkarlığı və sənətə bağlılığı nəticəsində Azərbaycan mədəniyyəti dünyada layiqli səviyyədə təmsil olunub. Onlarla xarici ölkədə Azərbaycan mədəniyyət gün-

ləri keçirilib. 1994-cü ildən başlayaraq bu günə kimi türk dünyasının YUNESKO-su sayılan TÜRKSOY beynəlxalq təşkilatına Polad Bülbüloğlu başçılıq edir. Bu təşkilat 12 ölkədə fəal iş aparır.

2002-ci ilin sentyabrında MDB ölkələri mədəniyyət nazirlərinin mədəni əməkdaşlıq üzrə yaradılmış şurasının sədri də məhz Polad Bülbüloğlu seçilib. O, bu vəzifəni də uğurla davam etdirir. 2002-ci ildə Gürcüstan Respublikasının "Şərəf" ordeninə layiq görünmüş Polad Bülbüloğlu "Türk dünyasına xidmətlərinə görə" TÜRKSOY (Türk Dünyası Yazarlar və Sənətçilər Vəqfi) mükafatını almışdır.

2004-cü ildə Rusiyanın ilk Milli mükafatına – Azad Himayədarlar Şurasının "Yaradıcı ulduz" mükafatına layiq görülmüşdür.

Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətləri olan Polad Bülbüloğluun əməyi həmişə diqqət mərkəzindədir. Bu mənada, 2005-ci il fevralın 2-si onun həyatında ən unudulmaz tarixə çevrildi. Ölkə prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Polad Bülbüloğlu vətənin ən yüksək mükafatına – "İstiqlal" ordeninə layiq görüldü.

Polad Bülbüloğlu Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin fəxri professoru, "Avropa-Asiya" Beynəlxalq Humanitar Akademiyasının həqiqi üzvü, akademikidir.

Biz bilərəkdən Polad Bülbüloğlunun bu illər ərzində gördüyü nəcib işlərin hamısı barədə müfəssəl söhbət açmadıq. Çünki nə qədər istəsək də onları bir jurnal yazısına sığışdırmaq mümkün deyildi..

Digər tərəfdən, oxucularımız onlar haqqında ayrı-ayrı zamanlarda müxtəlif mətbuat orqanlarından məlumat alıblar.

Bir də axı göstərilən etimadlar, verilən mükafatlar çox şey deyir. Təkrar söyləməyə ehtiyac varmı?!

Parlaq istedad, ardıcıl zəhmət öz bəhrəsini verəndə, layiqli qiymətini alanda ömür daha da mənalaşır, həyat şirinləşir, dünya gözəlləşir.

Bir daha ürəkdən təbrik edirik!!!

**Y.VƏLİYEV**

***P.S. Jurnalımızı çapa imzalayırdıq ki, fərəhli bir müjdə də qapımızı döydü. Sevincimizə sevinc calandı. Polad müəllimi Rusiya Federasiyasının ali mükafatı "Xalqlar Dostluğu" ordeninə layiq görülməsi münasibəti ilə çoxsaylı mədəniyyət işçiləti və musiqisevərlər adından təbrik etməkdən də xüsusi məmnunluq duyur, ona uzun ömür, möhkəm can-sağlığı, yaradıcılıq uğurları arzulayırıq...***